Bayram HACIZADƏ
Əməkdar incəsənət xadimi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
Email: azercatoon@gmail.com

"MOLLA NƏSRƏDDİN" MƏCMUƏSİNİN TƏBRİZ DÖVRÜ (1921-ci il)

Xülasə: *Məqalə bütün müsəlman Şərqində ilk satirik jurnal kimi tanınmış "Molla Nəsrəddin" məcmuəsinin Təbriz dövründən – onun nəşrinin Yaxın Şərq və İranın mədəni həyatında mühüm hadisəyə çevrilməsindən bəhs edir. "Molla Nəsrəddin"in İran satirik qrafikası və satirik mətbuatının formalaşmasında və karikaturanın müstəqil janr kimi tanınmasında oynadığı rolu işıqlandıran bu məqalədə müəllif Azərbaycanlı rəssam Seyid Əli Behzadın 1921-ci ildə jurnal üçün işləyib hazırladığı – özündə istehza, acı gülüş, tənə və tənqid daşıyan müxtəlif mövzulu karikaturalarını geniş təhlil edir.*
Açar sözlər: *"Molla Nəsrəddin" jurnalı, Təbriz dövrü, karikatura, satirik rəsm, mətbuat*

İnqilablar, çevrilişlər, müharibələr dövrü olan XX əsrin əvvəllərində yaranmış mürəkkəb siyasi şərait, cəmiyyətdəki ziddiyyətlər, sosial problemlər satirik mətbuata da öz təsirini göstərirdi. Baş verən siyasi burulğanlar, çevrilişlər, hakimiyyət böhranının yaratdığı çətinliklər mətbuatın işini əngəlləyir, satirik jurnallar bir-birinin ardınca fəaliyyətini dayandırırdılar. Belə bir mürəkkəb şəraitdə çap işləri üçün vəsait, mətbəə, hətta kağız tapmaq gündən-günə çətinləşirdi. 1920-1921-ci illərdə Bakıda demək olar ki, heç bir satirik jurnal nəşr olunmurdu. C.Məmmədquluzadənin redaktoru olduğu "Molla Nəsrəddin" məcmuəsinin fəaliyyəti isə hələ 1917-ci ildə dayandırılmışdı. Jurnalın redaktorlarından biri olmuş Ə.Qəmküsarın dediyi kimi, "Biz "Molla Nəsrəddin"i qapamaq fikrində deyilik və bu fikirdə də olmayacağıq, jurnalın müvəqqəti dayandırılmasına ancaq indiki namüsaid vaxtlar baisdir" [2, s. 191]. Həqiqətən də çox namüsaid bir dövr idi. Buna baxmayaraq, C.Məmmədquluzadə "Molla Nəsrəddin"in nəşrinin bərpası istiqamətində durmadan çalışır, müxtəlif görüşlər keçirir, vəsait və maliyyə dəstəyi axtarışlarını davam etdirirdi.

1917-ci ildə "Molla Nəsrəddin" jurnalı fəaliyyətini dayandırdıqdan sonra C.Məmmədquluzadə öz ailəsi ilə birlikdə Tiflisdən Ağdamın Kəhrizli kəndinə köçmüş, 1918-1920-ci illərdə orada yaşamışdır. Kəhrizlidə yaşamasına baxmayaraq o, "Molla Nəsrəddin"in əməkdaşları ilə sıx əlaqə saxlamış, jurnalın nəşrinin yenidən bərpa olunması istiqamətində çalışmış, ədəbi yaradıcılığını davam etdirmişdir. Jurnalın nəşrini Təbrizdə bərpa etmək arzusu ilə C.Məmmədquluzadə 1920-ci ildə ailəsi ilə İrana köçmüşdü. Mirzə Cəlilin Cənubi Azərbaycana – Təbrizə köçməsi Şimali Azərbaycanda Sovet hakimiyyəti qurulmasının ilk aylarına təsadüf etmişdi. Bu səfər bir tərəfdən C.Məmmədquluzadənin həmin dövrdə keçirdiyi tərəddüdlərin nəticəsi idisə, digər tərəfdən onun Cənubi Azərbaycanda milli azadlıq hərəkatına uzun illər bağlı olması ilə izah edilə bilər. "Məlumdur ki, "Molla Nəsrəddin" jurnalı bütün fəaliyyəti boyu Səttərxan hərəkatının qələbəsi uğrunda yorulmadan mübarizə aparmış, xalq hərəkatını

dəstəkləmişdi. 1917-ci ildə jurnal Cənubi Azərbaycan demokratlarının mübarizəsinə yaxından yardım göstərmiş, Şeyx Məhəmməd Xiyabani hərəkatının qələbəsi üçün əlindən gələni əsirgəməmişdir (C.Məmmədquluzadənin qardaşı Mirzə Ələkbər Məmmədquluzadə Səttar xan hərəkatının fəal üzvlərindən biri olmuş, Şeyx Məhəmməd Xiyabaniyə yaxından köməklik göstərmişdir)" [1, s. 210].

C.Məmmədquluzadənin Təbrizə gəlməsi demokratlar və tərəqqipərvər insanlar arasında böyük sevincə səbəb olmuşdu. Mirzə Cəlilin İranda, xüsusən də Təbrizdə olduqca böyük nüfuzu var idi. Həmidə xanımın xatirələrində C.Məmmədquluzadənin yanına hər gün yüzlərcə təbrizlinin gəlməsi, insanların ona hörmət və ehtiramla yanaşması haqqında çox dəyərli yazılar var. C.Məmmədquluzadə Təbrizə köçdüyü gündən "Molla Nəsrəddin" jurnalının nəşri ilə bağlı hazırlıqlar aparmış, bu istiqamətdə müxtəlif insanlarla bir sıra görüşlər keçirmişdir. Şəhər valisi və onun müşavirlərinin jurnalı ancaq fars dilində buraxmaq haqqında təklifinə Mirzə Cəlil belə cavab vermişdi: "Mən, "Molla Nəsrəddin" jurnalını 15 il əvvəl Azərbaycan dilində nəşr etdirmişəm. Qafqaz Azərbaycanında olduğu kimi, İran Azərbaycanında da ancaq azərbaycanlılar yaşayırlar. Burada yalnız ayrı-ayrı savadlı adamlar fars dilində danışırlar. Mən, "Molla Nəsrəddin" jurnalını onlar üçün deyil, xalq kütlələri üçün buraxıram. O şeyə ki, mənə hətta rus hökuməti icazə verirdi, siz icazə vermirsiniz" [5, s. 120; 2, s. 215].

Jurnalın nəşrinin əngəllənməsində inqilabçılara qarşı barışmaz və sərt mövqeyi ilə seçilən şəhər valisi Müxbirüssəltənənin də "xidmət"ləri az olmamışdır. Müxbirüssəltənənin azadlıq hərəkatına qarşı amansızlığı, qəddarlığı və ikiüzlü siyasəti C.Məmmədquluzadəyə çoxdan məlum idi. "Molla Nəsrəddin" jurnalının hələ 1910-cu ilin 24-cü nömrəsində dərc edilmiş "Şəxsi-əvvəli-Azərbaycan" adlı karikaturada Müxbirüssəltənə çox gülünc vəziyyətdə təsvir olunmuşdu.

Belə mürəkkəb bir şəraitdə, hədə-qorxu altında yaşayan, demək olar ki, hər gün real təhlükə ilə üzləşən C.Məmmədquluzadə bütün bu çətinliklərə və təzyiqlərə baxmayaraq, ruhdan düşmür, jurnalın nəşr olunması xahişi ilə hakim dairələrə davamlı olaraq müraciət edirdi. Uzun süründürməçilikdən sonra jurnalın nəşrinə baş məqalələri fars dilində buraxmaq şərti ilə icazə verilmişdi. Çox çətinliklə əldə olunmuş bu razılıqdan sonra litoqrafiya, mətbəə, kağız, təcrübəli rəssam və başqa məsələlər ortaya çıxmışdı. Qeyd etmək lazımdır ki, o illər Təbrizdə cəmi 100 tirajla yalnız bir hökumət qəzeti var idi. O da fars dilində nəşr edilirdi. Litoqrafiya və mətbəə bərbad vəziyyətdə idi.

"Molla Nəsrəddin"in nəşrinə icazə verildikdən sonra C.Məmmədquluzadə azərbaycanlı rəssam Seyid Əli Behzadı jurnala əməkdaşlığa dəvət edir. Nəhayət, 1921-ci ilin fevral ayının 7-də Təbrizdə "Molla Nəsrəddin" satirik jurnalının ilk nömrəsi işıq üzü görür. Təəssüf hissi ilə demək lazımdır ki, jurnal ilk nömrəsi çapdan çıxandan dərhal sonra bağlanır və onun rəsmi olaraq bağlandığı barədə Müxbirüssəltənənin imzaladığı əmr C.Məmmədquluzadəyə təqdim olunur. "Molla Nəsrəddin"in bağlanmasında hakimiyyət orqanları, şəhərin varlı insanları və əlbəttə, ruhanilər "güc"lərini əsirgəməmişdilər. Dindarlar, ruhanilər jurnalı nüfuzdan salmağa çalışır, hətta xüsusi fitvalar çap etdirərək onun baş redaktoru C.Məmmədquluzadəni kafir adlandırır, ölümlə hədələyirdilər. Bunu Təbrizdə təxminən həmin aylarda ruhanilərin verdiyi fitva da təsdiq edir. Həmin fitvanı bəziləri 1921-ci ilə deyil, 1906 və ya 1908-ci ilə aid edirlər. Lakin

fitvanın bir bəndində jurnalın Təbriz nömrələrinə işarə olunduğunu nəzərə alaraq, onun məhz 1921-ci ilə aid olduğunu demək olar (1921-ci ildə verilmiş bu fitvanın əsli 1946-cı ildə Cənubi Azərbaycanda tapılmışdır). Fitvada deyilir: "Bəzi idarə düzəldib ruznamə nəşr edən şəxslərdən naxçıvanlı Mirzə Cəlili göstərmək olar ki, "Molla Nəsrəddin"in müdiridir. Öz yazılarında rişxənd edərək, məscidə getməyi xalqa mən edir, moizəyə qulaq asmağın zərərini isbat edir. Deyir ki, məsciddə görüb və eşitdiklərini, ruznamələrdə də görüb və eşidərsən, hansı ki, ruznamələrdə üləmayə söyüşdən başqa bir şey yoxdur. Başdan ayağa qeybət, nağıl və ləğviyyətdən ibarətdir. Vaizin və məscid əhlinin surətini pis şəkildə çəkirlər. Arvadların yaşınmaları haqqındakı hicab ayəsini lağa qoyurlar. İstəyirlər ki, müsəlman qadınları da kafər qadınları kimi hicabsız gəzsinlər və onlar eyliyəni eyləsinlər. ... Aya! Belə bir jurnala pul verib almaq, onu oxumaq və onu oxuyana qulaq asmaq necə olar" [2, s. 219].

Fars dilində yazılmış həmin fitvanın dörd tərəfindən ruhanilər öz xətləri ilə jurnal haqqında fikirlərini yazıb, möhürlərini vurmuşlar. Məsələn, məşhur ruhani Məhəmməd Qasım Ordubadi yazır: "Bu cür ruznamələri yazan və tabe olan adamlar aşkar kafirdirlər, ona pul vermək, almaq İbn-Ziyadə kömək etməkdən betərdir. Onu oxumaq, qulaq asmaq haramdır" [2, s. 220]. Qeyd etmək lazımdır ki, "Molla Nəsrəddin" haqqında Azərbaycan, Orta Asiya və Şərq ölkələrində də ruhanilər dəfələrlə belə fitvalar vermişlər. Bu haqda da jurnalın 1906-1917-ci il nömrələrində dəfələrlə məlumat verilmişdir.

Jurnalın nəşri dayandırıldıqdan sonra ikinci nömrəyə yenidən icazə almaq üçün C.Məmmədquluzadə və Təbrizin qabaqcıl insanları böyük əmək sərf etmişlər. Jurnalın oxucuları, maarifpərvər insanlar ölkənin hər tərəfindən kütləvi şəkildə "Molla Nəsrəddin"in nəşrinin davam etdirilməsini tələb edirdilər. 1921-ci ilin fevral ayında C.Məmmədquluzadə Təbrizin tanınmış simalarından biri olmuş ictimai xadim Hacı Əli Şəbüstəri və sonralar Rza şahın hakimiyyəti dövründə öldürülmüş Möhsün xan Sərtib ilə birlikdə Müxbirüssəltənənin yanına getmiş, ondan jurnalın yenidən nəşr olunmasına icazə verilməsini xahiş etmişlər. Jurnalın nəşrinə fevralın 14-də icazə verilsə də, ikinci nömrə yalnız fevralın 25-də çapdan çıxmışdır. Həmin nömrədə də çap olunmuş bütün karikaturaların müəllifi Seyid Əli Behzad olmuşdur.

C.Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım xatirələrində Behzad haqqında belə yazır: "O, İstanbulda təhsil almış, bir müddət İran şahının sarayında rəssam kimi çalışmışdır. Behzad təxəllüslü bu rəssamın adı Seyid Məhəmməd Əli idi. Jurnalın Təbriz nömrələrindəki karikaturaların altında isə biz bir neçə fərqli imza oxuyuruq: "Behzad", "Seyid Əli Müsəvvirzadə", "Müsəvvirzadə Seyid Əli Behzadi". Şübhə yoxdur ki, bu imzaların hamısı bir rəssama – Seyid Əli Behzada aiddir [4, s. 6].

Təəccüblüdür ki, Cənubi Azərbaycan alimi Məmmədəli Tərbiyətin "Daneşmendane Azərbaycan" ensiklopedik lüğətində Seyid Əli Behzadın adı yoxdur. M.Tərbiyət Təbrizdə nəşr olunmuş məcmuələr sırasında "Molla Nəsrəddin"i göstərsə də, onun rəssamı haqqında məlumat vermir [8, s. 20]. Təəssüflə demək lazımdır ki, bu peşəkar rəssam haqqında, onun sonrakı yaradıcılığı və fəaliyyəti haqqında bizdə heç bir məlumat yoxdur. Lakin Seyid Əli Behzadın jurnalda dərc olunmuş karikaturalarının tədqiqi onu deməyə əsas verir ki, Azərbaycan satirik mətbuatı və satirik qrafikasının inkişa-

fında əməyi olmuş bu peşəkar rəssamın yaradıcılığı, onun bədii irsi daha dərindən öyrənilməyə layiqdir.

Seyid Əli Behzadın "Molla Nəsrəddin" jurnalı üçün işləyib hazırladığı rəsmlərdən görünür ki, o, yerli tipləri sərrast çəkərək, çoxfiqurlu kompozisiyalarda süjet aydınlığına asanlıqla nail ola bilmişdir. Karikaturalarında ştrixləmədən məharətlə istifadə edən Behzad bəzən İ.Rotterin üslubuna yaxınlaşır. Lakin onun öz dəst-xətti, öz üslubu asanlıqla duyulur. Rəssamın karikaturalarının rəngi çox şərti və sönükdür. Bunu, litoqrafiya problemi kimi qiymətləndirmək olar. Bütün bunlara baxmayaraq, rəssamın jurnalın səhifələrində dərc olunmuş hər bir karikaturası öz sənət kamilliyi ilə seçilir. Bir sözlə, Seyid Əli Behzadın Təbrizdə nəşr edilmiş "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlığı Azərbaycan milli rəssamlıq tarixinin qiymətli səhifələrindən biridir [6, s. 20].

Şəkil 1. Bikarxaneyi-dövlətiyi-bazari-Şəfi. Seyid Əli Behzad ("Molla Nəsrəddin", 1921, № 1).

Jurnalın hələ I nömrəsində Seyid Əli Behzadın C.Məmmədquluzadənin "Bekarlar məhəlləsi" adlı felyetonuna çəkdiyi "Bikarxaneyi-dövlətiyi-bazari-Şəfi" karikaturasında idarələrdə oturub heç bir işlə məşğul olmayan, dövlətdən müftə pul alan məmurlar tənqid olunurdu. Təbriz küçələrində minlərlə işsiz insanın, dilənçi vəziyyətində yaşayan xalqın acı taleyinə laqeyd qalan hakimiyyət orqanlarının bu məmurları "yedizdirməyi" heç də təsadüfi deyildi, çünki onlar hər zaman şahı və şahın sadiq əlaltılarını müdafiə etməyə hazır idi. Həmin karikaturanın sol tərəfində əlində 4 min tümən tutmuş kargüzar və onun arxasında bu səhnəni dəhşətlə izləyən, bir qarın çörəyə ehtiyacı olan dilənçi təsvir olunmuşdu. O, sağ əlini uzadaraq sanki onu da unutmamağı, ona da heç olmasa çörək pulu verməyi rica edir. Bu personaj Təbriz küçələrində ac-yalavac gəzən, yoxsulluq içində yaşayan adi xalqın ümumləşdirilmiş obrazı kimi təqdim olunub (şək. 1).

Xalqın dilənçi vəziyyətində yaşaması, işsizlik, Təbriz küçələrində baş alıb gedən hərc-mərclik və bu rüsvayçılığa məhəl qoymayan məmur laqeydliyini bütün çılpaqlığı ilə əks etdirən "Təbriz bazarında" (1921, № 4), "Əzayi-bələdiyyə" (1921, № 5), "Təbriz küçələrində" (1921, № 8), aylarla məvacibini almayan müəllimlərin sıxıntılarını, hüquqlarının tapdalanmasını, mədrəsələrdə təhsilin "gülüş" doğuran vəziyyətini göstərən "Təzim edirəm sənə, ey Allahın heyvanı" (1921, № 4), "Müəllimlər baş tükünü götürüb, əba örtməlidir" (1921, № 2), "Mədrəseyi-İsgəndani" (1921, № 6), eləcə də əqidəsini tez-tez dəyişən, özünü ziyalı, xalq təəssübkeşi adlandıran, hər gün bir partiyanın qapısını döyən simasız insanların tənqidinə yönəlmiş "Tamam etiqad və imanımla gəlmişəm sizin firqəyə daxil olum" (1921, № 3) karikaturalarında istehza və acı gülüş birlikdə addımlayır. Bu istehza və acı gülüşü jurnalın bütün Təbriz nömrələrində aydın hiss etmək olar.

"Molla Nəsrəddin" jurnalının Təbriz nömrələrinin əvvəlki və sonrakı dövrlərdə nəşr olunmuş nömrələrdən fərqini M.C.Cəfərov belə izah edir: "Təbriz nömrələrindəki

ruh Tiflis və Bakıda nəşr olunmuş "Molla Nəsrəddin"ə bənzəmir. Burada gülüş ustasının dodaqları güclə tərpənir. Fövqəladə geniş bir ürəyə sahib olan Mircə Cəlil Təbriz həyatını həyəcansız dərk edə bilmir. Bu nömrələrdə ciddi mühakimə, qəzəb, səbirsizlik və qəlb narahatlığı hər yerdə yumor və satiraya üstün gəlir. Çünki onlar Təbrizə xitabən yazılıb" [3].

Təbriz nömrələrindəki kəskin satira, acı və ağrılı gülüşə baxmayaraq, "Molla Nəsrəddin"in nəşri Təbrizdə və bütövlükdə İranda böyük bir hadisəyə çevrilmişdi. Təbrizdə dərc olunmuş bütün nömrələr üçün əsas məqalə və felyetonları C.Məmmədquluzadənin özü yazıb hazırlamış və əvvəllər olduğu kimi "Dəli", "Hərdəmxəyal", "Sarsaqqulubəy" və başqa imzalarla çap etdirmişdi. "Molla Nəsrəddin"in Təbriz dövrü adlandırılan zaman kəsiyində cəmi səkkiz nömrəsi çapdan çıxmışdı. Bu nömrələrdə 18 karikatura dərc olunmuşdu. Təbriz həyatını, azərbaycanlıların məişətini, gündəlik həyat problemlərini əks etdirən həmin rəsmlərin əksəriyyətində köhnə adətlər, nadanlıq və gerilik, dini fanatizm, mollaların, ruhanilərin gülüş doğuran "fərmayişləri", Şərq qadınının acınacaqlı vəziyyəti gündəmə gətirilmişdi. Onlar arasında "Qızı mədrəsəyə qoymursan ki, yad kişilərə məktub yazmaq öyrənsin?" (1921, №3), "Təbrizdə bəzzar dükanı" (1921, № 3), "Ey müsəlman qardaş, insanları həkimə aparıram" (1921, № 6), "Tərbiyəsiz faytonçu" (1921, № 6), "Uşağa ad qoyulması" (1921, № 7) kimi karikaturalar öz kəskin satirası və acı gülüşü ilə seçilir.

Seyid Əli Behzadın yüksək peşəkarlıqla işləyib hazırladığı "Tehranda köhnə vəzirlərin halı" karikaturasında (1921, № 5) – hər addımbaşı öz xalqını çapıb-talayan, öz cibini və qarnını güdən rüşvətxor məmurun düşdüyü vəziyyəti əks olunmuşdur. Plakat xarakteri daşıyan, tənə, tövsiyə və tərbiyə ruhunda işlənmiş bu karikaturada dövlət nazirinin vəzifədə olduğu zaman haram yolla qazandığı pulları "qaytarması" səhnəsi təsvir edilib. Yeyib-yatmaqdan yoğunlamış, tutduğu kürsüdən istifadə edərək xalqın pullarını "Mədeyi-Şərif"indən keçirtmiş bu şişman kişinin son aqibəti bir çox dövlət məmurları üçün dərs olmalıdır.

Seyid Əli Behzadın "Molla Nəsrəddin" jurnalının 1921-ci ilin 7-ci nömrəsində dərc olunmuş, ciddi ictimai-siyasi yük daşıyan "Bu qaniçən mənim qıçıma haradan yapışıb" karikaturası satirik kəsəri, mövzusunun aktuallığı və rəssam cəsarəti ilə seçilir. Karikaturanın mərkəzində təsvir olunmuş kişi fiqurunun sinəsində yazılmış "Azərbaycan" sözü qəhrəmanın Azərbaycanı təmsil etdiyini göstərir. Personajın geyimi, başındakı papağı onun Cənubi azərbaycanlı olduğuna işarə edir. Ağrıdan və dəhşətdən üz əzələləri gərilmiş bu personaj əlindəki maqqaşla ayağına yapışmış qaniçəni (zəlini) qopartmağa çalışır. Azərbaycanın qanını soran, əl və ayaqlarından qan daman qaniçənin molla paltarında təsvir olunması karikaturanın satirasını kəskinləşdirir. Qəhrəmanın forma və üz cizgilərinin çox incə və rəvan xətlərlə işlənməsi, həcm yaradan kölgələrin xırda və sıx ştrixlərlə vurulması bu karikaturanı peşəkar rəssamın çəkdiyini bir daha təsdiq edir. Qara tuşla çəkilmiş rəsmin fonu qırmızımtıl-qəhvəyi karandaşla işlənmişdir. Dərin ideya gücünə malik olan bu karikatura həm də siyasi cəhətdən aktual bir problemi işıqlandırır. Burada rəssam özünü qaniçəndən müdafiə etməyə çalışan milli geyimli azərbaycanlı obrazı ilə əslində Azərbaycanı bir ərazi, diyar, məkan kimi, Azərbaycanlının ayağına zəli kimi yapışıb, onun qanını içən həşəratı isə mövhumatın,

geriliyin simvolu kimi təsvir etmişdir. Azərbaycanın in-kişafına, Azərbaycan xalqının savadlanmasına, öz taleyini həll etmək ixtiyarını nə vaxtsa qazanacağına inanan rəssam azərbaycanlıların sağlam gələcəyinə mane olan mövhumatı bu istiqamətdə olan əsas əngəl kimi göstərmiş, "xəstəliyin" səbəbini düzgün təyin etmişdir (şək. 2).

Şəkil 2. Bu qaniçən mənim qıçıma haradan yapışıb? Seyid Əli Behzad ("Molla Nəsrəddin", 1921, № 7).

Jurnalın səhifələrində mövhumatı, köhnə adət-ənənələri, fırıldaqçı mollaların tamahını, dövlət məmurlarının, hökumət adamlarının xalqın acınacaqlı güzəranına laqeyd münasibətini tənqid, ifşa edən rəsmlərlə yanaşı, beynəlxalq aləmdə baş verən, ciddi ictimai-siyasi yük daşıyan karikaturalara da yer verilirdi. Bu karikaturalar sırasında "Hara gedirsən?", "Yediklərini qaytaracaqsan", "Türk-yunan məsələləri" karikaturaları xüsusi diqqət çəkir. Jurnalın 1921-ci ilin 8-ci nömrəsində dərc edilmiş "Türk-yunan məsələləri" karikaturası türklər və yunanlar arasında gedən müharibəyə həsr olunub.

"Molla Nəsrəddin"in Təbrizdə çapdan çıxmış nömrələrində bir neçə imzasız karikatura da vardır. Onlar Seyid Əli Behzadın rəsmlərinə nisbətən zəifdir, demək olar ki, bəsitdir. Burada ortaya "Təbrizdə jurnalın ikinci bir rəssamı da olmuşdurmu?" sualı çıxır. Əli Minayi və Tağı Şahinin fikrinə görə, "Molla Nəsrəddin"lə o zaman Seyid Ərəbzadə adlı bir rəssam da əməkdaşlıq etmişdir [8, s. 21]. Bu fikri qəti təsdiq etmək çətin olsa da, jurnaldakı karikaturaların iki rəssamın qələmindən çıxdığını əminliklə söyləmək olar. "Siyasət aləmində" (1921, № 1), "Urmidə" (1921, № 2), "Sarbdan-Ərdəbildə" (1921, № 2), "Tənzilin min Rəbbül-aləmin" (1921, № 8) kimi karikaturalar öz zəif rəssam işi ilə S.Ə.Behzadın karikaturalarından hiss olunacaq dərəcədə fərqlənir. Bu karikaturalarının bəzilərinin altından "Behzad" yazılsa da, rəssamın dəst-xəttinə bələd olanlar onların müəllifinin Seyid Əli Behzad olmadığını asanlıqla müəyyənləşdirə bilərlər. Bütün müsəlman şərqində ilk satirik jurnal kimi tanınan "Molla Nəsrəddin" məcmuəsinin Təbriz dövrü Yaxın Şərqin mədəni həyatında mühüm hadisə kimi qiymətləndirilməlidir. Məhz bu məcmuə vasitəsilə o dövrün qabaqcıl insanları İran və Yaxın Şərqdə baş verən siyasi hadisələrə, mövcud problemlərə C.Məmmədquluzadə, S.Ə.Behzad kimi tanınmış yazıçı və rəssamların gözü ilə baxmaq imkanı əldə etmişlər. C.Məmmədquluzadə Təbrizdə yalnız jurnalist kimi deyil, həm də ictimai xadim, nüfuzlu ziyalı kimi fəaliyyət göstərmişdir. O, dəfələrlə demokrat partiyasının yığıncaqlarında çıxış etmiş, ayrı-ayrı qabaqcıl, tərəqqipərvər insanlarla görüşlər keçirmiş, onlara faydalı məsləhətlər vermişdir.

ƏDƏBİYYAT:

1. Axundov N. Azərbaycan satira jurnalları. B.: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1968, 356 s.
2. Axundov N. "Molla Nəsrəddin" jurnalının nəşri tarixi. B.: Azərbaycan Dövlət nəşriyyatı. 1959, 258 s.

3. Cəfərov M.C. "Molla Nəsrəddin" Təbrizdə. // "Ədəbiyyat" qəzeti. №11, 1946, 23 aprel.
4. Məmmədquluzadə H. Xatirələr. Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri. 3 cilddə. B.: 1948.
5. Məmmədquluzadə H. Mirzə Cəlil haqqında xatirələrim. B.: Azərbaycan Dövlət nəşriyyatı, 1967, 212 s.
6. Nəcəfov M. Rəssam və zaman. B:, Gənclik, 1977, 176 s.

Байрам ГАДЖИЗАДЕ
Заслуженный Деятель Искусств
Доктор философии по искусствоведению, профессор

ТЕБРИЗСКИЙ ПЕРИОД ЖУРНАЛА «МОЛЛА НАСРЕДДИН» (1921)

Резюме: *В статье рассматривается Тебризский период журнала «Молла Насреддин», известного как первый сатирический журнал на всем мусульманском Востоке, говорится о значении этого издания, ставшего важным событием в культурной жизни Ближнего Востока и Ирана. В статье, освещающей роль журнала "Молла Насреддин" в формировании иранской сатирической графики и сатирической прессы, автор подробно анализирует творчество азербайджанского художника Сейид Али Бехзада, его карикатуры, напечатанные в журнале в 1921-ом году, содержащие иронию и горький смех, упреки и критику.*

Ключевые слова: *журнал "Молла Насреддин", Тебризский период, карикатура, сатирический рисунок, пресса, критика, художник*

Bayram HAJIZADEH
Honoured Art Worker PH Doctor on Art Criticism, professor

TABRIZ PERIOD OF THE "MOLLA NASREDDIN" MAGAZINE (1921)

Summary: *The article tells about the Tabriz period of the "Molla Nasreddin" magazine, known as the first satirical one of the entire Muslim East, about turning its release into an important event in the cultural life of the Middle East and Iran. In this article, covering the role of the "Molla Nasreddin" magazine in shaping the Iranian satirical graphics and satirical press, as well as recognizing the cartoon as an independent genre, the author analyzes in detail the cartoons of the Azerbaijani artist Sayid Ali Behzad created in 1921 for the magazine on various topics containing irony and bitter laughter, blame and criticism.*

Keywords: *"Molla Nasreddin" magazine, Tabriz period, cartoon, satirical drawing.*

Rəyçilər: sənətşünaslıq üzrə elmlər doktoru, professor Sevil Sadıxova,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ziyadxan Əliyev